# Almaniya nəşri Azərbaycanda ağacəkmə aksiyasından yazıb

**Almaniyada çıxan "Berliner Press" nəşrində AZƏRTAC-a istinadla dekabrın 6-da Azərbaycanda 650 min ağacın əkilməsi üzrə aksiyanın keçirilməsi barədə yazı dərc edilib. Yazıda deyilir ki, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva aksiyada iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, yazıda böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr edilmiş aksiyanın mahiyyətindən danışılır.

Yazıda xüsusi vurğulanır ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilmiş bu aksiya təkcə Azərbaycanda deyil, bütün dünyada böyük əks-səda doğurub.

**AZƏRTAC**

Respublika.- 2019.-8 dekabr.- S.5.